

Biznes əməliyyatları hesabatı

2026-cı ilin üçüncü rübünün yekunları

Əsas göstəricilər
(2026-cı ilin üçüncü rübünün sonu)

Hasilat	
AÇG	
neft (min barel/gün)	320
neft (milyon ton)	12
Şahdəniz	
qaz (milyard kubmetr)	20
kondensat (milyon ton)	3

Əməliyyat məsrəfləri (milyon dollar)	
AÇG	401
Şahdəniz	2002

Əsaslı məsrəflər (milyon dollar)	
AÇG	1088
Şahdəniz	1078



2026-cı ilin ilk üç rübünün mühüm hadisələri – AÇG əməliyyatları

- **~4,7 milyard barel** neft ilk hasilatdan bəri əldə olunub
- **~63 milyard kubmetr** səmt qazı ilk hasilatdan bəri dövlətə təhvil verilib.
- **12 neft hasilatı quyusu, 3 su injektoru və 2 qaz injektoru quyusu** qazılıb və tamamlanıb.
- **AÇG quyuları arasında ən uzun layla təmas hissəsinə malik** D18Z neft hasilatı quyusu Şərqi Azəri platformasından qazılıb. Quyunun məhsuldar layla təmasda olan hissəsinin uzunluğu 2000 metrdən çoxdur.
- **4D yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramı** çərçivəsində 2025-ci ildə əldə olunmuş məlumatların interpretasiyası və inteqrasiyası davam edib.
- **Dərinsulu Günəşlidə çoxquyulu sualtı müdaxilə proqramı** təhlükəsiz şəkildə və qrafiki qabaqlayaraq tamamlanıb. Proqram çərçivəsində 7 sualtı quyuda müdaxilə əməliyyatları həyata keçirilib.
- **Mərkəzi Azəri Qaz Genişləndirilməsi (CAGE)** layihəsi də uğurla tamamlanıb. Layihə nəticəsində Mərkəzi Azəri platformasında qazın yenidən laylara vurulma gücü 20% artırılıb.
- **AÇG-də STQ hasilatı əməliyyatları** Qırmakıaltı Qumlu lay dəstində davam edib və ilkin dövr hasilatı olmaqla yanaşı həmçinin quyuda və lay dəstində sınaq işlərinin aparılmasını da əhatə edib.



Şərqi Azəri platforması

2026-cı ilin üçüncü rübünün mühüm hadisələri –Şahdəniz əməliyyatları

- **~284 milyard kubmetr** qaz ilk hasilatdan bəri əldə olunub.
- **~55 milyon ton** kondensat ilk hasilatdan bəri əldə olunub.
- **Şahdəniz 2 layihəsi** çərçivəsində şərq-şimal cinah quyularında sualtı işlər üzrə fəaliyyətlər davam edib; sentyabr ayında bu cinahda dördüncü quyu işə salınıb.



Şahdəniz Alfa platforması

2026-cı ilin üçüncü rübünün mühüm hadisələri –Şahdəniz Kompressiya (ŞDK) layihəsi

- **ŞDK layihəsi** üzrə işlər təhlükəsiz şəkildə və qrafiki qabaqlayaraq irəliləyib. Rübün sonuna layihə çərçivəsində xəsarət nəticəsində vaxt itirilmədən ümumilikdə 4 milyondan çox iş saatı yerinə yetirilib.
- ŞDK platformasının **üst modullarının və dayaq blokunun tikintisi işləri** müvafiq istehsalat-quraşdırma sahələrində davam edib; **ilkin polad və struktur komponentlərinin tikintisi** üzrə əhəmiyyətli irəliləyiş əldə olunub.
- Oktyabr ayında dənizdə **boru payaların quraşdırılması əməliyyatlarının** başa çatdırılması ilə layihə üzrə mühüm bir nailiyyət əldə edilib və bununla da dənizdə tikinti işlərinə başlanıb.
- **Sualtı mühəndislik fəaliyyətləri** qrafikə uyğun davam edib.
- Bir sıra **mühüm avadanlıq dəstinin təchizat prosesi** tikinti və quraşdırma cədvəllərinə uyğun davam edib.



ŞDK platformasının boru payalarının quraşdırılması

2026-cı ilin üçüncü rübünün mühüm hadisələri – Səngəçal terminalı

- **~138 milyon barel** neft və kondensat və **~20 milyard kubmetr** Şahdəniz qazı 2026-cı ilin birinci rübündə Səngəçal terminalından ixrac edilib.
- **Gündəlik ixrac gücü:** 1,2 milyon barel neft və kondensat və 100 milyon kubmetr qaz.
- **Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi** üzrə işlər uğurla davam edib və rübün sonuna ümumilikdə 90% tamamlanıb. Rüb ərzində layihə üzrə bir sıra mühüm quraşdırma və sınaq işləri tamamlanıb, istismar sınaqları başlanıb və terminalın gələcək elektrikləşdirilməsinə dəstək məqsədilə enerji təchizatı sisteminin modernləşdirilməsi davam edib. Terminal ərazisindən kənarda yerləşən "AzərEnerji"nin dövlət elektrik şəbəkəsi infrastrukturunun yenilənməsi işləri başa çatıb.



Səngəçal terminalı

2026-cı ilin üçüncü rübünün mühüm hadisələri – Şəfəq günəş layihəsi


- Üçüncü rübdə **Şəfəq günəş layihəsi üzrə tikinti işləri** Cəbrayıl rayonunda yerləşən layihə sahəsində irəliləyib. Layihə çərçivəsində ümumilikdə qeydiyyata alınan xəsarət olmadan 1 milyon iş saatı yerinə yetirilib.
- **Əsas avadanlıqların təchizatı və çatdırılması** uğurla tamamlanıb.
- **Payaların və izləyici sistemlərin quraşdırılması** üzrə işlərdə ciddi irəliləyiş əldə olunub; elektrik quraşdırma fəaliyyətləri başlanıb və plana uyğun davam edib.
- **Modulların quraşdırılması** üzrə işlər rübün sonuna 50% tamamlanıb.
- Tikinti işlərində **yerli resurslardan istifadə** artmaqda davam edib; hazırda layihəyə 444 nəfər yerli işçi cəlb olunub ki, bunların 150-si işğaldan azad olunmuş ərazilərdə yeni məskunlaşan sakinlərdir.



Şəfəq günəş layihəsi

Digər layihələr üzrə mühüm hadisələr

- **Şəfəq-Asiman dəniz blokunda** Aşağı Suraxanı layına bir quyunun qazılması da daxil olmaqla gələcək fəaliyyətlərin planlaşdırılması üzrə işlər aparılır.
- **Qarabağ yatağında** dənizdibi sensor qovşaqlarla (OBN) seysmik tədqiqat və yüksək dəqiqlikli /ultra yüksək dəqiqlikli seysmik tədqiqat proqramlarından əldə olunmuş məlumatların emalı davam edib.
- **ADUA layihəsi çərçivəsində** yeraltı qatlar haqqında ətraflı məlumatlar əldə etməklə gələcək kəşfiyyat quyularının planlaşdırılmasına dəstək məqsədilə il ərzində daha əvvəl 2-ölçülü yüksək dəqiqlikli seysmik tədqiqat həyata keçirilib.




ADUA blokunda 2D yüksək dəqiqlikli seysmik tədqiqat


Qarabağ yatağında OBN seysmik tədqiqat

2026-cı ilin üçüncü rübündə bp-nin işçiləri

- **2313 Azərbaycan vətəndaşı** 2026-cı ilin üçüncü rübünün sonunda bp-də işləyib.
- Azərbaycanda ixtisaslı işçilərin **90%-dən çoxu yerli kadrlardır**.





2026-cı ilin üçüncü rübündə yerli ehtiyatlardan istifadə

Yerli podratçılar/təchizatçılar (Azərbaycan, Gürcüstan, Türkiyə regionu)	Sayı	Xərclənib (milyon dollar)
Kiçik və orta müəssisələr	227	408,3
Dövlət şirkətləri	34	48,1
Yerli tərəfdaşı olan birgə müəssisələr	14	672,6
Xarici podratçıların ölkə daxilində məsrəfləri	58	360,9
Ölkə daxilində cəmi xərclər*	**333**	**1489,9****

* Bu məbləğ bp-nin yerli şirkətlərlə birbaşa xərclərini və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə / xidmətlərə / materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri göstərir.

** Ümumi üçüncü tərəf xərclərinin 65%-i



2026-cı ilin üçüncü rübündə sosial təşəbbüslər

Azərbaycanda sosial təşəbbüslər
(ödənilmiş, milyon dollar)

bp və bp-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları	1,2
bp 100%	1,1
Cəmi	2,3


Ölkənin zəngin mədəni irsinin təbliği



Yerli sərişdə və bacarıqların artırılması


Yerli universitetlərin tədris imkanlarının genişləndirilməsi